***UOT-811.11-112***
***Səhifə: 190-195***
*https://doi.org/10.59849/2663-8967.2025.1.190*

***Simnar Əlizadə***
***Bakı Dövlət Universiteti***
***simnarelizade112@gmail.com***

# QOŞULMA BUDAQ CÜMLƏLİ TABELİ MÜRƏKKƏB CÜMLƏLƏRDƏ SEMANTİKA VƏ İNFORMASİYA

## XÜLASƏ

Elmin, texnikanın inkişafı cəmiyyətin ümumi dünyagörüşünə də öz təsirini göstərir. Bu təsirin ən qabarıq ifadəsi dildə öz əksini tapır. Dilin qrammatik quruluşunda dəyişikliklər az nəzərə çarpsa da, son illərdə burada yeni cümlə modelləri ilə qarşılaşırıq. Belə cümlə tiplərindən biri də qoşulma budaq cümləli tabeli mürəkkəb cümlələrdir. Daha çox elmi və publisistik üslub üçün xarakterik olsa da, bədii üslub nümunələrində də bu cümlə tipləri yer alır. Məqalədə "qoşulma əlaqəsi" və "qoşulma budaq cümləsi" anlayışları şərh edilmiş və bir- birindən fərqləndirilmiş, qoşulma budaq cümləli tabeli mürəkkəb cümlələrdə komponentləri bağlayan vasitələr müəyyənləşdirilmiş, onların cümlənin semantikasına və ifadəsi nəzərdə tutulan informasiyaya təsiri araşdırılmışdır. Bu tip cümlələrdə semantikanın müəyyənləşməsi, komponentlər arasındakı semantik bağlılıq, baş və budaq cümlə arasında informativ münasibət, komponentlərin qarşılıqlı əlaqəsindən doğan ümumi semantik yük və ifadəsi nəzərdə tutulan informasiya xüsusi diqqət tələb edir. Qoşulma budaq cümləli tabeli mürəkkəb cümlələrdə semantika və informasiyanı müəyyənləşdirərkən komponentlərin qarşılıqlı əlaqəsinə, eyni zamanda cümlənin daxil olduğu kontekstə və kontekstin ümumi situasiyasına əsaslanmaq lazımdır.

***Açar sözlər:*** *tabeli mürəkkəb cümlə, qoşulma budaq cümləsi, semantika, informasiya.*

**Giriş:** Dilin leksikası ilə müqayisədə qrammatik quruluşu daha az dəyişikliyə uğrayır. Lakin qrammatik quruluşda da zamanla əhəmiyyətli dəyişikliklər gedir və bunun da nəticəsində yeni sintaktik modellər formalaşır. Tədqiqatlar göstərir ki, son illərdə elmin, texnikanın, cəmiyyətin təfəkkür, dünyagörüş səviyyəsinin inkişafı nəticəsində dildə, eyni zamanda onun sintaktik quruluşunda xüsusi dəyişikliklər baş vermiş, bir sıra feili tərkiblər, mürəkkəb cümlə strukturları xüsusilə geniş yayılmağa başlamışdır. Son illərdə publisistik və elmi üslub nümunələrində yeni mürəkkəb cümlə modellərinə rast gəlirik. Bunlardan biri də qoşulma budaq cümləli tabeli mürəkkəb cümlələrdir. Qeyd etdiyimiz cümlə tipinin struktur sxemini belə qura bilərik:

Baş cümlə+ ki, bu da/ ki, o da/ -sa$^2$ o da/ -sa$^2$ bu da + budaq cümlə.

Verilmiş struktur sxemə uyğun gələn nümunəyə diqqət edək;

*Şuşada Fatma xanım Kəminəni çox vaxt hörmətlə "Mirzə Fatma xanım" adlandırırlar ki, bu da onun bilikli və savadlı olduğunu göstərirdi [3,s. 58].*

Verilən cümlə qoşulma budaq cümləli tabeli mürəkkəb cümlə nümunəsidir. Burada "Şuşada Fatma xanım Kəminəni çox vaxt hörmətlə "Mirzə Fatma xanım" adlandırırlar" baş cümlə, "ki, bu da" qoşulma əlaməti, "Onun bilikli və savadlı olduğunu göstərirdi" isə budaq cümlədir.

Tabeli mürəkkəb cümlənin növləri arasında ən az tədqiqata cəlb olunanı qoşulma budaq cümləli tabeli mürəkkəb cümlələrdir. Qoşulma budaq cümləli tabeli mürəkkəb cümlələrdə budaq cümlə baş cümləyə qoşularaq baş cümlədəki fikrə münasibət bildirir, qiymət verir, ya da baş cümlədə ifadə olunan məlumatı genişləndirmək üçün ona aid əlavə məlumat verir. Qoşulma budaq cümləsi baş cümləyə ya intonasiyanın, ya da "ki" bağlayıcısının köməyi ilə bağlanır. Tabeli mürəkkəb cümlənin bu tipində budaq cümlənin əvvəlində daha çox "o da", "bu da" ifadələrinə rast gəlirik. "Ki" bağlayıcısının köməyi ilə bağlanan qoşulma budaq cümləli tabeli mürəkkəb cümlələrdə baş və budaq cümlə arasındakı tabelilik münasibəti yalnız intonasiyanın köməyi ilə bağlanan cümlələrə nisbətən daha güclüdür. Yalnız intonasiyanın köməyi ilə komponentləri bağlanan qoşulma əlaqəli

mürəkkəb cümlələrdə baş və budaq cümlə arasındakı tabeliliyin dərəcəsi zəif olur. Bu hal qoşulma budaq cümləli tabeli mürəkkəb cümlələri tabesiz mürəkkəb cümləyə yaxınlaşdırır [1,s. 345].

Q.Kazımov qoşulma budaq cümləsinə belə tərif verir; "Qoşulma budaq cümləsi baş cümləyə qoşularaq, ya baş cümlədəki fikirlə bağlı əlavə məlumat verir, ya da baş cümlədə ifadə olunan fikrə münasibət bildirir" [5, s.849]. Qoşulma budaq cümləli tabeli mürəkkəb cümlələrdə həmişə baş cümlə əvvəl, budaq cümlə isə baş cümlədən sonra işlənir. Budaq cümlə baş cümləyə üç yolla bağlana bilər;

1. "Ki" bağlayıcısı ilə.
2. İsə hissəciyinin köməyi ilə. Bu halda "isə" hissəciyi baş cümlənin xəbərində işlənir.
3. Yalnız intonasiyanın köməyi ilə.

*Tanrıdan bir narazılığım varsa, o da baxtımın qara yazılmasıdır (isə hissəciyi ilə)*
*Tanrıdan bir narazılığım var ki, o da baxtımın qara yazılmasıdır ("ki" bağlayıcısı ilə)*
*Tanrıdan bir narazılığım var, o da baxtımın qara yazılmasıdır (intonasiya ilə)*

Hər üç forma qoşulma budaq cümləsidir. Bu cümlələrdə ifadə olunan informasiya eynidir. Bu cümlələr yalnız qrammatik semantikasına görə bir- birindən fərqlənir. "Ki" bağlayıcısı ilə komponentlər bağlandıqda qətilik semantikası ifadə olunur, dəqiq bilirik ki, kommunikatorun tanrıdan yalnız bir narazılığı var , o da bəxtinin qara olması ilə bağlıdır. Komponentlər "isə" hissəciyi ilə bağlandıqda isə cümlədə qətilik zəifləyir. Bu halda kommunikatorun tanrıdan tək narazılığının bəxtinin qara olması ilə bağlı olacağı ehtimal edilir. Komponentlər yalnız intonasiyanın köməyi ilə bağlandıqda isə nümunə tabesiz mürəkkəb cümləyə bənzəsə də, asanlıqla baş və budaq cümlənin arasına "ki" bağlayıcısını bərpa edə bildiyimiz üçün nümunə qoşulma budaq cümləli tabeli mürəkkəb cümlədir. Verilmiş cümlənin hər üç bağlanma yolunda daşıdığı semantik yük məlum oldu. İfadə olunan informasiya isə, bildiyimiz kimi, baş və budaq cümlənin birləşməsindən doğur. Baş cümlənin semantikası aydındır, lakin informasiyası tam deyil. Cümlədə işlənən "bir" sözü qeyri- müəyyənlik yaradır və cümlənin təsir gücünü artırır. Dinləyicidə həmin narazılığın nə olması ilə bağlı maraq baş qaldırır. İnformasiyanın tamamlanması üçün budaq cümləyə müraciət edirik; "O da baxtımın qara yazılmasıdır". Budaq cümlənin xəbəri frazeoloji birləşmə ilə ifadə olunur. Birləşmədəki "qara" sözü həm informativliyi gücləndirir, həm də semantikanı müəyyənləşdirir. "Qara" sözünün semantikasında "ağırlıq, neqativlik, mənfilik, pislik" çaları özünə yer edir. Dilimizdə tez- tez işlənən "qara xəbər, qara gün, qara tale, qara məktub, qara yazı" kimi ifadələr fikrimizi bir daha sübut edir. Verilmiş cümlədə kommunikator "baxtım qara yazılıb" deməklə "taleyinin uğursuz olmasına, həyatında bir çox şeyin yolunda getmədiyinə, uğursuzluğa düçar olmasına" işarə edir. Hər bir cümlənin informasiyasının müəyyənləşməsində həlledici rol kontekstə məxsus olduğundan cümlənin daxil olduğu kontekstə nəzər salaq:

– *Sultana təslim olmaq istəmirsən?*
– *Mən indiyə qədər azad bir quş olmuşam. Mən qızıl qəfəsə təslim olmaq istəmirəm (Qızın səsindəki məlamət onu əfsunladı).*
– *Sən həm də ağıllı gözəliymişsən.*
– *Tanrıdan bir narazılığım varsa, o da baxtımın qara yazılmasıdır.*
– *Qara bəxt. Sultanın ağuşuna düşmək ağ bəxtdir.*
– *Kimin üçün ağdırsa, mənim üçün qaradır.*
– *Ey gözəl, mən səni başa düşdüm. Cariyyə kimi saraya gətirilən belə bir mələyin inciməyə haqqı var [6, s.30]..*

Kontekstə nəzər saldıqda danışanın bəxtinin qara yazılmasının səbəbi sevmədiyi şəxsin əlində olması və onunla nikaha girməyə məcbur edilməsidir. Evliliyin də insanın həyatında əhəmiyyətli rol oynadığını nəzərə aldıqda sevmədiyi şəxsin arvadı olmağı kommunikator bəxtinin qaralığı ilə bağlayaraq bədbəxt olması və ya olacağı informasiyasını verir.

Qoşulma əlaqəli tabeli mürəkkəb cümlənin tədqiqata cəlb olunması XX əsrin ortalarına təsadüf edir. Qoşulma budaq cümləli tabeli mürəkkəb cümlələr dilçiliyimiz üçün nisbətən yenidir, çünki dil tarixinin son dövrlərinin məhsuludur. Bu tip cümlələrin publisistik üslubdan bədii üsluba keçdiyi qeyd olunur. Qoşulma budaq cümləsi funksional cəhətdən əlavəyə bənzəyir. Necə ki əlavə aid

olduğu cümlə üzvünə və ya xitaba qoşularaq onu izah edib aydınlaşdırır, mürəkkəb cümlədə də qoşulma budaq cümləsi eyni funksiyanı yerinə yetirir.

Ə. Abdullayev verilmiş anlayışın "əlavə budaq cümlə" termini ilə adlandırılmasını məqbul hesab edir. Müəllif qeyd edir ki, sadə cümlədə cümlə üzvlərinin əlavəsinin yerinə yetirdiyi funksiyanı tabeli mürəkkəb cümlədə qoşulma budaq cümləsi yerinə yetirir. Qoşulma budaq cümləsi deyilərkən, baş cümləyə qoşulma əlaqəsinin köməyi ilə bağlanan budaq cümlələr nəzərdə tutulur. B. Cəlilov da "qoşulma budaq cümləsi" termininin yerinə "əlavə budaq cümləsi" terminınə üstünlük verir. Müəllif tabeli mürəkkəb cümlənin semantik tipləri arasında daha çox zərflik budaq cümlələrinin baş cümləyə qoşulma əlaqəsi əsasında bağlandığını qeyd edir. Buraya tərzi- hərəkət, səbəb, məqsəd, nəticə, şərt budaq cümləli tabeli mürəkkəb cümlələri daxil edir [10, s.28]. Beləliklə, müəllifin izahından aydın olur ki, o, qoşulma əlaqəsi ilə qoşulma budaq cümləsini fərqli anlayışlar hesab edir. Onun fikrincə, qoşulma budaq cümləsi tabeli mürəkkəb cümlənin xüsusi bir növüdür. Qoşulma əlaqəsi isə daha çox zərflik budaq cümləli tabeli mürəkkəb cümlələrdə özünü göstərən, fərqli semantik tiplərdə baş və budaq cümlənin əlaqələnməsini təmin edən vasitələrdən biridir. Beləliklə, qeyd edə bilərik ki, "qoşuma əlaqəsi" geniş anlayışdır, sözlərin, cümlələrin qoşulmasını ehtiva edir. Qoşulma budaq cümləsi isə bu konstruksiyalardan yalnız biridir. F. Cəlilov isə "əlavə" sözünün işlədilməsinin omonimlik yaradacağını və qarışıqlığa səbəb olacağını vurğulayır. Beləliklə, tədqiqatçıların ortaq fikri əsasında tabeli mürəkkəb cümlənin bu tipi "qoşulma budaq cümləsi" adlandırılmağa başlayır. Ə. Abdullayev bu tip cümlələrdə budaq cümlənin baş cümlə ilə zəif bağlandığını müəyyən etmişdir. Belə ki, tabeli mürəkkəb cümlənin digər növlərində budaq cümlə baş cümlənin buraxılmış və ya işarə əvəzliyi ilə ifadə olunmuş üzvünün yerinə işlənərək cümlənin semantik və informativ cəhətdən tamamlanmasına xidmət edir [1, s.234]. Lakin qoşulma əlaqəli tabeli mürəkkəb cümlələrdə hər hansı bir üzvün buraxılmadığı və ya baş cümlədən budaq cümləyə heç bir işarənin olmadığı hiss olunur. Baş cümlənin intonasiya bitkinliyi o qədər çox nəzərə çarpır ki, budaq cümlə həmin intonasiyanın sərhədlərindən sanki kənarda qalır. Beləliklə, qoşulma əlaqəli tabeli mürəkkəb cümlələrdə komponentlər arasında struktur-semantik tamamlanma özünü göstərsə də, intonasiya baxımından tamamlanma, bitkinlik nisbətən zəifdir.

*Yazda intensiv yağışlar yağırdı.*
*Yazda intensiv yağışların yağması fermerləri qorxudurdu.*
*Yazda intensiv yağışlar yağırdı, bu da fermerləri qorxudurdu.*
*Yazda intensiv yağışlar yağırdı ki, bu da fermerləri qorxudurdu.*
*Yazda intensiv yağışlar yağarsa, bu da fermerləri qorxudacaq..*

Qoşulma əlaqəli tabeli mürəkkəb cümlənin inkişafında yuxarıdakı ardıcıllığın izləndiyini qeyd edə bilərik.

Qoşulma əlaqəli tabeli mürəkkəb cümlədə budaq cümlə baş cümlədən sonra gələrək əlavə informativ yük daşıyır. Müasir dilçilikdə qoşulma budaq cümləli tabeli mürəkkəb cümlənin sintetik və analitik formaları fərqləndirilir [8,s. 425].

1. Analitik tip. Analitik tipdə budaq cümlə baş cümləyə "ki" bağlayıcısının köməyi ilə bağlanır. Məsələn*; Bu il buraxılış imtahanlarında 59 şagird maksimal 300 balı topladı ki, bu da son 30 ildə ən yüksək göstəricidir [12].*
2. Sintetik tip. Qoşulma budaq cümləsinin sintetik tipi baş cümləyə "isə" hissəciyinin köməyi ilə bağlanır. Məsələn; *Bu ərazilərdə nə qədər pambıq tarlası vardısa, hamısı Rüstəm kişinin nəzarəti altında idi [4, s.21].*

Bağlanma vasitələrinə əsasən qeyd edə bilərik ki, analitik tipdə "qətilik" semantikası qüvvətlidir və burada konkret, dəqiq informasiya ifadə olunur. Sintetik tipdə isə "qətilik" semantikası zəifləyir. Cümlədə verilən informasiya ehtimal xarakteri daşıyır.

R.Qaibova özünün "Azərbaycan dilində qoşulma budaq cümləli tabeli mürəkkəb cümlə" dissertasiyasında qoşulma budaq cümləli tabeli mürəkkəb cümlələrin dörd struktur tipini qeyd edir:

1. Baş cümlə+ ki, o da / bu da+ budaq cümlə.
2. Baş cümlə+ ki, o/ bu+ budaq cümlə.
3. Baş cümlə+ bu da/ o da+ budaq cümlə.
4. Baş cümlə+ -sa$^2$ o da/ bu da+ budaq cümlə [7, s.50].

T. Müzəffəroğlu tabeli mürəkkəb cümlənin semantikasının müəyyənləşdirmənin üç yolunu qeyd edir:

1. Tabeli mürəkkəb cümləni təşkil edən hər bir komponentin semantikasının müəyyənləşdirilməsi.
2. Tabeli mürəkkəb cümləni təşkil edən komponentlərin qarşılıqlı əlaqəsinin semantikasının müəyyənləşdirilməsi.
3. Konstruksiyanın bütövlükdə semantikasının müəyyənləşdirilməsi [9, s.13].

Tabeli mürəkkəb cümlənin semantikasının müəyyənləşdirilməsində hər üç yol bir-biri ilə sıx bağlıdır. Dilçilikdə cümlənin öyrənilməsi iki istiqamətdə aparıla bilər; formadan mənaya və mənadan formaya. Bu istiqamətlərdən hansının aparıcı mövqeyə malik olması haqqında dilçilər arasında fikir ayrılıqları mövcuddur. Əksər tədqiqatçılar mənadan formaya istiqamətinə üstünlük verirlər. Biz də bu fikrin tərəfdarıyıq. Fikrimizcə, qoşulma budaq cümləli tabeli mürəkkəb cümlənin tədqiqində də bu istiqamətdən istifadə etməliyik.

Bəzən elə qoşulma əlaqəli tabeli mürəkkəb cümlələrlə qarşılaşırıq ki, burada budaq cümlə bütövlükdə baş cümlənin ümumi məzmununa deyil, baş cümlədəki hər hansı bir üzvün məzmununa əlavədir. Belə cümlələrdə əsas informativ yük baş cümlədə cəmlənir, budaq cümlə tərəfindən izah edilən üzv aktuallaşdırılır [10, s.31]:

*Ümummilli liderimiz Heydər Əliyevin çıxışlarında dilimizin ifadə imkanlarından məharətlə istifadə etməsi hər zaman tədqiqatçılarımızın diqqətini cəlb edir ki, onlar da daim bu böyük şəxsiyyətin nitq mədəniyyətinin əsaslarını araşdırmağa can atırlar [11].*

Budaq cümlədəki “onlar” əvəzliyi baş cümlədəki “tədqiqatçılarımız” sözünü izah edir. Nümunədə qoşulma budaq cümləsi baş cümlədəki tamamlığı izah edir, aydınlaşdırır. Baş cümlədəki “tədqiqatçılarımz” sözü aktuallaşmışdır.

Son illərdə bu cümlə tipindən istifadənin genişlənməsi dildə informasiyanın daha konkret və mükəmməl verilməsi tələbindən irəli gəlir.

Qoşulma budaq cümləli tabeli mürəkkəb cümlədə komponentlərin əlaqələnməsində iştirak edən “o” və “bu” əvəzlikləri də cümlənin semantik tutumuna öz təsirini göstərir. Əgər cümlədə “o” əvəzliyi əlaqələnmədə iştirak edirsə, uzaqdakı, “bu” əvəzliyi isə yaxındakı əşya və hadisəyə işarə edir. “O” əvəzliyi baş cümlədəki subyekti budaq cümlədə verilmiş informasiyadan uzaqlaşdırır, “bu” işarə əvəzliyi isə budaq cümlənin informasiyasına yaxınlaşdırır. Belə ki, qeyd edə bilərik ki, “bu” əvəzliyi cümlədə varsa, kommunikatora uyğun, münasib olan pozitiv informasiya budaq cümlədə verilir. Əlaqələnmədə “o” əvəzliyi iştirak edirsə, bu zaman kommunikatora uyğun olmayan, məqbul saymadığı, neqativ məzmun daşıyan informasiya budaq cümlədə ifadə olunur. Bu da bir daha əlaqələnmədə iştirak edən əvəzliklərin cümlənin semantikasına təsirini göstərir. Fikrimizi nümunələrlə əsaslandıraq:

*Aprel- may aylarında hava yağıntısız keçirdi ki, o da əkinçilərin kefinə soğan doğrayırdı.*

*Aprel- may aylarında hava yağıntısız keçirdi ki, bu da arıçıların lap ürəyindən idi.*

Hər iki nümunə qoşulma budaq cümləli tabeli mürəkkəb cümlədir. Baş cümlə hər iki nümunədə eynidir, lakin budaq cümlələr müxtəlifdir. Birinci nümunədə budaq cümlənin informativ yükü xəbərdə cəmlənmişdir. “Kefinə soğan doğramaq” ifadəsinin mənası “əhvalı pozulmaq, kədərlənmək” ifadələrinə uyğun gəlir. Cümlədə ifadəsi nəzərdə tutulan informasiya “Aprel- may aylarında havaların yağıntısız keçməsi əkinçiləri kədərləndirirdi” cümləsinin informasiyasına uyğundur. Çünki əkinlərin yaxşı inkişafı, məhsuldarlığın bol olması üçün yağış vacib şərtdir. Ona görə də, yaz aylarında yağışın yağmaması əkinçilər üçün neqativ haldır. Buna müvafiq olaraq komponentlərin əlaqələnməsində “o” əvəzliyi iştirak edir. İkinci cümlədə budaq cümləyə əsasən deyə bilərik ki, baş cümlədəki hadisə arıçıların sevincinə səbəb olmuşdur. Buna səbəb havanın yağıntısız keçməsidir. Belə ki, yaz aylarında hava yağıntısız keçərsə, arılar rahat nektar əldə edəcək, yeşiklərdə balın miqdarı artacaq, nəticədə arıçı da bol qazanc əldə edəcək. Bu da arıçılar üçün sevindirici haldır. Beləliklə, bu nümunədə budaq cümlə kommunikatira uyğun gələn, münasib olan pozitiv informasiyanı ifadə edir. Buna uyğun olaraq da komponentlərin əlaqələnməsində “bu” işarə əvəzliyi iştirak edir. Cümlədə ifadəsi nəzərdə tutulan informasiya isə “Aprel- may aylarında havanın yağıntısız keçməsi arıçıları sevindirirdi” cümləsinin informasiyasına ekvivalentdir. Deyə

bilmərik ki, qeyd etdiyimiz hal bütün qoşulma budaq cümləli tabeli mürəkkəb cümlələr üçün keçərlidir. Lakin rastlaşdığımız nümunələrin əksəriyyətində bu hal ödənir. Son illər Azərbaycan dilində qoşulma budaq cümləli tabeli mürəkkəb cümlələrin işləklik dairəsinin genişlənməsi dilimizin beynəlxalq dil mühitinə çıxması, xaricə inteqrasiyanın güclənməsi ilə bağlıdır.

Dilimizdə azlıq təşkil etsə də, bəzi qoşulma əlaqəli tabeli mürəkkəb cümlələr var ki, onlar "baş cümlə + -sa² - onlardan+ budaq cümlə" şəklində qurulur. Burada "o" əvəzliyi cəmdə işlənir. Nümunəyə diqqət edək:

*İndi kənddə iki xoşbəxt adam vardısa, onlardan biri Sərvinaz, o biri də Əziz idi [3,s. 98].*

Verilmiş nümunədə əsas informasiya baş cümlədə ifadə olunur. Budaq cümlə isə baş cümlədəki əsas informasiyanı əlavə informasiya ilə zənginləşdirərək dinləyiciyə çatdırmağa xidmət edir. Budaq cümlə baş cümlədəki informasiyanı təfsilatla ifadə edir. Baş cümlədə kənddə iki nəfərin xoşbəxt olması ilə bağlı informasiya verilir. Lakin bunların kimliyi bəlli deyil. Cümlənin informativ tutumu tam deyil. Baş cümləyə əlavə məlumat şəklində qoşulan budaq cümlə, eyni zamanda ondakı natamamlığı tamamlayır. Burada semantik natamamlıqdan söhbət getmir, informativ natamamlığı nəzərdə tuturuq. Xoşbəxt adamların kimliyi budaq cümlədə verilir. Beləliklə, verilmiş qoşulma budaq cümləli tabeli mürəkkəb cümlənin ifadə etdiyi informasiya "Kənddəki iki xoşbəxt adamdan biri Sərvinar, digəri isə Əziz idi" cümləsinin informasiyası uyğundur.

**Nəticə.** Qoşulma budaq cümləli tabeli mürəkkəb cümlələr dilimizin beynəlxalq arenalarda layiqli təmsil olunmasının nəticəsidir. Publisistik və elmi üslublarda daha çox rast gəlinir. Budaq cümlə baş cümləyə əlavə məlumat şəklində qoşulur. Komponentlərin qarşılıqlı əlaqəsi və bu əlaqələnmədə iştirak edən vasitələr cümlənin semantikasını və ifadəsi nəzərdə tutulan informasiyanı müəyyənləşdirir. Baş cümlənin informasiya tutumu budaq cümlənin köməyi ilə daha da genişlənir və aydınlaşır. Bu tip cümlələrdə də informasiyanın müəyyənləşməsində kontekstə və situasiyaya müraciət olunmalıdır.

## İstifadə edilmiş ədəbiyyat


1. Abdullayev Ə. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. Bakı, Maarif, 1974, 418 s.
2. Azərbaycan dilində tabeli mürəkkəb cümlə məsələləri. ADU nəşri, Bakı, 1983, 99 s.
3. Cəfərzadə Ə. Seçilmiş əsərləri. IX cild, Bakı, Elm və təhsil, 2021, 372 s.
4. İbrahimov M. Əsərləri: IV cild, "Böyük dayaq" romanı, Bakı, Yazıçı, 1979, 596 s.
5. Kazımov Q. Azərbaycan dilinin qrammatikası. Bakı, Elm və təhsil, 2017, 944 s.
6. Kərimzadə F. Xudafərin körpüsü. Tarixi roman, Y.Y.S.Q. Milli virtual kitabxana, Bakı 2009, 208 s.
7. Qaibova R. Azərbaycan dilində qoşulma budaq cümləli tabeli mürəkkəb cümlə. Dissertasiya, Bakı, 2006, 109 s.
8. Müasir Azərbaycan dili. Sintaksis III cild. Azərbaycan SSR EA Nəsimi adına Dilçilik İnstitutu, 1981, 440 s.
9. Müzəffəroğlu T. Müasir Azərbaycan dilində mürəkkəb cümlənin struktur semantikası. Azərəşr, Bakı, 2002, 304 s.
10. Səlimli T. Professor Ə. Z. Abdullayev və Azərbaycan dilçiliyi. Bakı, Elm və təhsil, 2017, 104 s.
11. https://science.gov.az/az/news/open/28996
12. https://sesqazeti.az/news/society/1148566.html


***Simnar Alizade***

***Semantics and information in the complex sentences with continuative subordinate clauses***

***Summary***

The development of science and technology also affects the general outlook of society. The most prominent expression of this influence is reflected in the language. Although the changes in the grammatical structure of the language are less noticeable, in recent years we encounter new sentence models here. One of such sentence types is the complex sentences with continuative

subordinate clauses. Although it is more characteristic of scientific and journalistic style, examples of artistic style also include these sentence types. In this type of sentences, the definition of semantics, the semantic connection between components, the informative relationship between the main and branch sentences, the general semantic load arising from the interaction of components and the information intended to be expressed require special attention. When determining the semantics and information in a complex sentence with a continuative subordinate clause, it is necessary to be based on the interaction of the components, as well as the context in which the sentence is included and the general situation of the context.

***Keywords:*** *complex sentence, continuative sbordinate claus, semantics, information.*

***Симнар Ализаде***

***Семантика и информация в сложноподчинённое предложения с присоединительным придаточным***

***Резюме***

Развитие науки и техники также влияет на общее мировоззрение общества. Наиболее яркое выражение этого влияния отражено в языке. Хотя изменения в грамматическом строе языка менее заметны, в последние годы мы сталкиваемся здесь с новыми моделями. Одним из таких типов предложений являются сложноподчиненные предложения с присоединительным придаточным. Хотя это более характерно для научного и публицистического стиля, примеры художественного стиля также включают эти типы предложений. В предложениях этого типа особого внимания требуют определение семантики, смысловая связь между компонентами, информационная связь между главой и ветвью предложения, общая смысловая нагрузка, возникающая в результате взаимодействия компонентов и информации, предназначенной для выражения. При определении семантики и информации в сложноподчиненном предложении с присоединительным придаточным необходимо опираться на взаимосвязь компонентов, а также контекст, в который включено предложение, и общую ситуацию контекста.

***Ключевые слова:*** *сложноподчинительное предложение, присоединительным придаточным, семантика, информация.*

***Çapa tövsiyə edən:*** ***Bakı Dövlət Universiteti***

***Rəyçilər:*** ***professor T.Hacıyev***
***professor Z.Şahbazova***